# HÜSEYNOV TOFİQ MİRSİYAB OĞLU



Hüseynov Tofiq 19 aprel 1954-cü ildə Xocalı şəhərində doğulmuşdur. 1961-ci ildə burada birinci sinfə getmiş və 1971-ci ildə orta məktəbi bitirmişdir. Ağdam şəhərindəki Kənd Təsərrüfatı Texnikumunda mexanizasiya fakültəsini bitirdikdən sonra 1974-cü ildə hərbi xidmətə çağırılmışdır. 1976-cı ildə əsgəri xidmətini Qazaxıstan Respublikasının Alma-Ata şəhərində başa vurub doğma yurduna qayıtmışdır. Xocalı şəhər orta məktəbində hərbi hazırlıq müəllimi işləmiş, 1991-ci ildə Xocalı ərazi özünümüdafiə batalyonunun təşkilatçılarından biri kimi taborun komandiri təyin edilmişdir. Tofiq rayonda "Mixaylo" ləqəbi ilə tanınmışdır. Meşəli kəndi uğrunda gedən döyüşdə onun taboru onlarla erməni yaraqlısını məhv etməyə müvəffəq olmuşdur. Onun səyi nəticəsində Naraguğ kəndində yerləşən və Xocalı şəhərini top atəşinə tutan top-batareya nöqtəsi susdurulmuş, Mehdikənd kəndinin fermasında yerləşən erməni quldurlarının artilleriya qurğusu “Alazan” məhv edilmiş və on erməni əsir götürülmüşdür. Bu əməliyyata görə Tofiq Hüseynova mayor rütbəsi verildi. 1992-ci il fevral ayının 26-da döyüş yoldaşları ilə birlikdə Xocalının müdafiəsinə qalxmışdır. Dinc əhalinin təhlükəsiz yerlərə köçürülməsində, düşmən hücumunun qarşısının alınmasında rəşadətlə vuruşurdular. Qeyri-bərabər döyüşdə Tofiq Hüseynov son gülləsinə qədər vuruşaraq, əsir düşməmək üçün qumbaranı sinəsinə sıxıb özü ilə bərabər ona yaxın erməni yaraqlısını da məhv etdi. Bakı şəhərindəki Şəhidlər Xiyabanında dəfn edilmişdir. Ailəli idi. Üç övladı var. Azərbaycan Respublikası Prezidentinin 7 iyun 1992-ci il tarixli 833 saylı Fərmanı ilə baş leytenant Hüseynov Tofiq Mirsiyab oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür.